III MDB OYUNLARI
AZƏRBAYCAN
2025

# Hər qəlbdə bir qələbə!

## Son məlumat

Daha ətraflı məlumat üçün III MDB Oyunları 2025-in rəsmi saytına daxil olun.
www.azerbaijan2025.com

## Yarış cədvəli

**Rəsmi ad**

III MDB Oyunları

**Oyunların keçiriləcəyi dövr**

28 sentyabr - 8 oktyabr 2025-ci il

**Açılış və bağlanış mərasimi**

Açılış mərasimi • 28 sentyabr 2025
Bağlanış mərasimi • 8 oktyabr 2025

Məkan: Gəncə Şəhər Stadionu

> "İdmana olan diqqət və qayğı hər bir ölkənin dövlət siyasəti olmalıdır"

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti




# Vacib rəqəmlər

7 şəhər

12 idman məkanı

23 idman növü

1. Gəncə İdman Sarayı
2. Gəncə Olimpiya İdman Kompleksi
3. Basketbol Meydançası, Gəncə
4. Gəncə Şəhər Stadionu
5. Gəncə Olimpiya İdman Kompleksi
6. Xankəndi Şəhər Stadionu
7. Yevlax Olimpiya İdman Kompleksi
8. "Kür" Olimpiya Tədris-İdman Mərkəzi Mingəçevir
9. Şəki Olimpiya İdman Kompleksi
10. Şəki Şəhər Stadionu
11. Qəbələ Olimpiya İdman Kompleksi
12. Qəbələ Şəhər Stadionu
13. Qəbələ Atıcılıq Klubu

GYD

GBB

GNJ

1. Qəbələ
2. Şəki
3. Mingəçevir
4. Yevlax
5. Gəncə
6. Göygöl
7. Xankəndi
8. Bakı

# İDMAN NÖVLƏRİ

| | | | | | |
|---|---|---|---|---|---|
| Kamandan oxatma | Badminton | 3x3 basketbol | Boks | Kanoe | Çövkən |
| Qılıncoynatma | Futbol U-16 | Yunan-Roma güləşi | Cüdo | Karate | Bədii gimnastika |
| Avarçəkmə | Sambo | Güllə atıcılığı | Stend atıcılığı | Üzgüçülük | Stolüstü tennis |
| Taekvondo | Batut gimnastikası | Voleybol | Qadın güləşi | Sərbəst güləş | |

# YENİLİKLƏR

Qeydiyyatdan keçmiş ölkələr

10

**Azərbaycan daxil olmaqla**

Nümayəndə heyətlərinin ümumi sayı

2330

Onlardan idmançıların sayı

1605

Azərbaycan 340 idmançı

Türkiyə 38 idmançı

Rusiya 262 idmançı

Qazaxıstan 147 idmançı

Belarus 240 idmançı

III MDB OYUNLARI
AZƏRBAYCAN
2025

Türkmənistan 48 idmançı

Tacikistan 144 idmançı

Özbəkistan 254 idmançı

Qırğızıstan 126 idmançı

Küveyt 6 idmançı

# İDMAN MƏKANLARI

## "KÜR" OLİMPİYA TƏDRİS-İDMAN MƏRKƏZİ


Kanoe


Taekvondo


Avarçəkmə


Karate



2010-cu ildə yaradıldığından bəri "Kür" Olimpiya Tədris-İdman Mərkəzi bir sıra əhəmiyyətli beynəlxalq yarışların və idman tədbirlərinin keçirildiyi məkan olmuşdur. Müasir infrastrukturu və əlverişli yerləşməsi sayəsində mərkəz həm yerli, həm də xarici idmançıları cəlb edir.

Geniş ərazisi (9,2 hektar), 390 tamaşaçı üçün nəzərdə tutulmuş müasir zalı, üzgüçülük hovuzu, akt zalı, 48 otaqlı (130 nəfərlik) mehmanxanası, 100 nəfərlik yeməkxanası və tennis kortu idmançıların rahat qalması və keyfiyyətli hazırlığı üçün bütün şəraiti təmin edir.

### Əsas beynəlxalq tədbirlərdən bəziləri:

**I Avropa Oyunları:** 2015-ci ildə keçirilmiş I Avropa Oyunları çərçivəsində kayak və kanoe üzrə yarışlar məhz Mingəçevirdə baş tutmuşdur.

**"Prezident Kuboku" və "Mingəçevir Reqatası":** Suqovuşan və Mingəçevirdə təşkil olunmuş genişmiqyaslı idman tədbirləri.

**Beynəlxalq təlim-məşq toplanışları:** Müxtəlif ölkələrin milli komandaları mütəmadi olaraq burada toplanışlar keçirir, avarçəkmə bazasından, üzgüçülük hovuzundan və universal idman zalından istifadə edirlər.

**Beynəlxalq seminarlar və konfranslar:** Burada məşqçilər və idman mütəxəssisləri üçün təlim proqramları və seminarlar təşkil olunur.

III MDB Oyunları çərçivəsində "Kür" Olimpiya Tədris-İdman Mərkəzində dörd idman növü üzrə yarışlar keçiriləcək.



# "STARTA DOĞRU"

**28 sentyabr – 8 oktyabr tarixlərində Azərbaycanda keçiriləcək III MDB Oyunları ərəfəsində ölkənin gənclərdən ibarət taekvondo yığması yarışlara ciddi şəkildə hazırlaşır. Komandanın baş məşqçisi Elnur Amanov görülən işlər, qarşıdakı planlar və yarışlardan gözləntilər barədə danışıb:**

"Komandanın formalaşdırılmasına ölkə çempionatından sonra başladıq. Yarışın nəticələrinə əsasən, qalib və ikinci yerin sahibləri yığmaya dəvət olundu. Bununla da III MDB Oyunlarına hazırlıq prosesinə başladıq.

Hazırlığın ilk mərhələsini başa vurmuşuq. Bu mərhələdə əsas diqqət fiziki hazırlığa yönəldildi. Ardınca idmançılara qısa müddətli istirahət verildi. Daha sonra məşqlər bərpa olundu. Federasiya bizə lazım olan bütün şəraiti yaradıb. Qarşıda iki intensiv təlim-məşq toplanışı planlaşdırılır. Hesab edirəm ki, komandanın potensialı olduqca yüksəkdir. 21 yaşadək kateqoriyaya əsas yığmanın üzvləri də daxil ola bilir. Dünya Taekvondo Federasiyası bu yaş qrupu üzrə turnirlər təşkil edir ki, gənc idmançılar yarış təcrübəsindən kənarda qalmasın və böyüklər kateqoriyasına keçid etsinlər. Azərbaycan ev sahibi kimi bu yarışlarda iki komanda ilə təmsil olunacaq — ümumilikdə 28 idmançı iştirak edəcək. Rəqabət kifayət qədər güclü olacaq: Rusiya, Qazaxıstan, Özbəkistan — dünya taekvondosunun liderləridir.

Turnirin səviyyəsi yüksək olsa da, Azərbaycan komandası layiqli çıxış etməyi qarşısına məqsəd qoyub. Gənc idmançılar üçün bu cür irimiqyaslı beynəlxalq yarışlarda iştirak həm böyük təcrübə, həm də güclü motivasiyadır. Doğma divarlar arasında çıxış etmək isə şübhəsiz ki, üstünlükdür. Ev sahibi statusu bizə əlavə motivasiya verir və komanda bu fürsətdən maksimum istifadə etməyə çalışacaq ki, azarkeşləri sevindirsin", – deyə o bildirib.

# Media akkreditasiyası

III MDB Oyunlarına KİV-lərin akkreditasiyası üçün portal 21 may 2025-ci il tarixində açılıb.
KİV nümayəndələrindən 372 müraciət daxil olub. Müraciətlərin qəbulu 8 avqust 2025-ci ildə bağlanıb.

https://azerbaijan2025.com/media-accreditation/

# PERSONA

## YAYLAGÜL RAMAZANOVA — CƏSARƏT VƏ İLHAM SİMVOLU

Paris-2024 Yay Olimpiya Oyunları Azərbaycan üçün təkcə idman uğurları ilə deyil, həm də qadın əzmkarlığının və gücünün möhtəşəm nümunəsi ilə yadda qalacaq. Yaylagül Ramazanova da buna əsl nümunə oldu.

Beynəlxalq Olimpiya Komitəsinin onun haqqında paylaşdığı cümlə — "Çempion ürəyi, ananın gücü" — əslində Yaylagülün hekayəsini qısa, amma çox təsirli formada izah edir. O, ana olmağa hazırlaşdığı bir vaxtda belə, idmandan, yarış meydanından geri çəkilmədi. Əksinə, kamandan oxatma yarışlarında iştirak edərək həm öz gücünü, həm də əsl idmançı ruhunu bütün dünyaya nümayiş etdirdi.

Yaylagülün addımı təkcə Azərbaycanda deyil, dünya mediasında da böyük maraq doğurdu. Xarici jurnalistlər onunla müsahibələrə, reportajlara can atırdı, çünki onun hekayəsi minlərlə qadına, gənc idmançıya ilham verir: hətta ən çətin şəraitdə də öz məqsədindən dönməmək mümkündür.

Yaylagül Ramazanova bir daha sübut etdi ki, əsl çempion olmaq üçün yalnız idman texnikası kifayət deyil — əsas olan iradə, əzm və ürəkdir. O, təkcə Azərbaycan idmanı üçün deyil, bütün dünyada qadınların gücünün rəmzinə çevrildi.









# BAKI 2017 – IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI

2017-ci ilin 12–22 may tarixlərində Azərbaycan paytaxtı Bakı IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Bu möhtəşəm idman tədbiri İslam Həmrəyliyi Oyunları tarixində ən böyük yarış oldu. Oyunlarda 54 İslam ölkəsindən 3000-dən çox idmançı iştirak etdi.

Oyunlar idman, dostluq və mədəniyyətlərarası əlaqələrin bayramına çevrildi. Azərbaycan yüksək təşkilatçılıq qabiliyyəti və qonaqpərvərliyi ilə seçildi. Ən böyük uğur isə medal sıralamasında birinci yeri tutmaq oldu — Azərbaycan 75 qızıl medal qazandı. Bu nəticə ölkəmizin gücünü və idmana verdiyi dəyəri nümayiş etdirdi.

IV İslam Həmrəyliyi Oyunları Azərbaycan üçün tarixi bir hadisə kimi yadda qaldı və ölkəmizin beynəlxalq nüfuzunu daha da artırdı.







# QIZIL QƏLƏBƏ

Nazim Hüseynov — Azərbaycanın müstəqillik dövründə tarixə düşmüş ilk Olimpiya çempionu olan görkəmli cüdoçudur. O, 2 avqust 1969-cu ildə Bakıda anadan olub və gənc yaşlarından cüdoya başlayaraq yalnız fiziki gücünü deyil, həm də inadkarlıq və məqsədyönlülüyünü nümayiş etdirib. Hüseynovun məşqçisi Azərbaycanın Əməkdar məşqçisi Tərlan Həsənov olub.

Bütün çəki dərəcələri üzrə ilin ən yaxşı cüdoçusu (1992), gənclər arasında 2 dəfə SSRİ çempionu (1987, 1989), SSRİ-nin Əməkdar idman ustası (1992).
1992-ci ildə Barselonada keçirilən Olimpiya Oyunlarının açılış mərasimində, MDB yığması tərkibində iştirak edərək Azərbaycanın bayrağını daşıyıb. Həmin oyunlarda Olimpiya çempionu olaraq finalda Cənubi Koreya cüdoçusu Yun Hyonu, yarımfinalda isə Yaponiyanın dünya çempionu Tadanori Koshinonu məğlub edib. Hüseynovun qələbəsi şərəfinə Olimpiya Oyunları tarixində ilk dəfə Azərbaycan bayrağı qaldırılıb.
1996-cı ildə Atlantada keçirilən növbəti Olimpiya Oyunlarında artıq Azərbaycan yığmasının tərkibində çıxış edib. Açılış mərasimində yenidən bayraqdar olub. Lakin həmin oyunlarda 1/8 finalda Meksika idmançısına uduzub.

Dünya çempionatının bürünc mükafatçısı (1991) və gümüş mükafatçısı (1993), 2 dəfə Avropa çempionu (1992, 1993), dünyanın ən güclü cüdoçularının iştirakı ilə keçirilən "A" kateqoriyalı beynəlxalq turnirin gümüş mükafatçısı (1997).
Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunub.
2000-ci ildə idman karyerasını başa vurub. İtaliya yığmasını çalışdırmaq təklifindən imtina edib.
2002-ci ildə Hüseynova Azərbaycan Respublikası Prezidentinin Xüsusi Olimpiya təqaüdü verilib.









# III MDB OYUNLARINDA KÖNÜLLÜLƏRİN ROLU

Azərbaycanda keçiriləcək III MDB Oyunları təkcə idman bayramı deyil, həm də yüzlərlə könüllü üçün mühüm təcrübə olacaq. Ölkənin müxtəlif bölgələrindən, xüsusilə də regionlardan olan gənclər yarışların təşkilində fəal iştirak edəcək, qonaqları qarşılayacaq, idmançılara kömək göstərəcək və bütün səviyyələrdə rahat atmosferin təmin olunmasına dəstək verəcəklər.

Könüllülərin rolu bu cür tədbirlərin təşkilində əsas istiqamətlərdən biridir — onlar iştirakçılarla təşkilatçılar arasında körpü rolunu oynayırlar. Onların səyləri sayəsində tədbirlər dəqiq, ahəngdar və qonaqpərvər şəkildə keçirilir. Könüllü olmaq gənclərə ünsiyyət bacarıqlarını inkişaf etdirmək, beynəlxalq mühitdə iş təcrübəsi qazanmaq və ölkənin müsbət tanıdılmasına töhfə vermək imkanı yaradır.

Bir çox könüllülər üçün III MDB Oyunlarında iştirak şəxsi və peşəkar inkişafda mühüm mərhələ olmaqla yanaşı, doğma Azərbaycan üçün qürur mənbəyi və yaddaqalan xatirələr xəzinəsi olacaq.

# Bəbir və Leylanın söhbəti



Leyla, könüllü dəstini artıq almısan?



Hə! Dünən götürdüm. Çox gözəldir: futbolka, papaq və vəsiqə. Hamısı Oyunların loqosu ilə. Bəs sən?



Mən də aldım. Məni Media Mərkəzinə təyin ediblər — jurnalistlərə kömək edəcəyəm. Təsəvvür elə, nə qədər müsahibə eşidəcəyəm!



Əla! Mən isə Fan Zonadayam. Qonaqları qarşılayacağam və onları istiqamətləndirəcəyəm. Açığı, bir az həyəcanlıyam.



Narahat olma! Sən həmişə insanlarla dil tapa bilirsən!
III MDB Oyunlarına hazırıq! Tezliklə görüşərik!

# TƏŞKİLATÇILAR

AZE
GƏNCLƏR VƏ
İDMAN NAZİRLİYİ

Baku
city
circuit

Azerbaijan2025.com